Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Zelenski: 'Rusiya Ukraynaya qarşı Şimali Koreya raketlərindən istifadə edir'

indicə




Şimali Koreya lideri Kim Çen In strateji qanadlı raketin sınağını izləyir.

Rusiya Ukraynanın Zaporojye şəhərinə ölümcül hücumda Şimali Koreya raketlərindən istifadə edib. Bunu Ukrayna prezidenti **Volodimir Zelenski** avqustun 11-də bildirib.

Vilayət rəhbəri **İvan Fedorov** gecə saatlarında baş verən hücumda yeddi nəfərin həlak olduğunu, 24 nəfərin yaralandığını bildirib. Avqustun 12-si matəm elan edilib.

Ukrayna rəsmiləri Dnepropetrovsk və Donetsk vilayətlərinə Rusiya hücumları nəticəsində daha altı nəfərin öldüyünü bildiriblər.

**"Zaporojyeyə Şimali Koreyanın ballistik raketləri, "Tsirkon" gəmi əleyhinə raketlər, idarəolunan aviabombalarla zərbələr endirilib. Bu, mülki infrastruktura maksimum**

**ziyan vurmağa hesablanmış qəddar hücum idi"**, – Zelenski sosial mediada yazıb.

Rusiya Müdafiə Nazirliyi isə Zaporojyedəki "Zaporojstal" polad zavodunu hədəfə aldığını bildirib. Nazirliyin iddiasına görə, zavod Ukrayna ordusu üçün metal istehsal edir.



Rusiya 2023-cü ildən bəri Ukraynaya qarşı işğalçı müharibədə bir sıra Şimali Koreya raketlərindən istifadə edib. Moskva müharibəni 2022-ci ilin fevralında başladıb.

"Reuters" ötən həftə Ukrayna hərbi kəşfiyyat rəsmisinə istinadla bildirib ki, Şimali Koreyanın raket bölməsinin Rusiyanın qərbindəki Voronej vilayətinə yerləşdirilməsinə başlanıb. Məlumata görə, bölmədə 120 ballistik raket və altı buraxılış qurğusu ola bilər.

İyulun 25-də Zelenski "Telegram"da yazıb ki, "Rusiya daha 30 min Şimali Koreya hərbçisi gətirmək istəyir və onların qəbulu üçün iyundan bəri Rusiyanın Voronej vilayətində hazırlıq işləri aparılır".

2024-cü ildə təxminən 12 min Şimali Koreya hərbçisi Rusiyanın Kursk vilayətinə yerləşdirilmişdi. Bu, Ukrayna qüvvələri qəflətən Rusiya ərazisinə daxil olmasından sonra baş vermişdi.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur